| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **Qanunlar** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **14.04.2017** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **595-VQD** |
| **ADI** | **“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 08-06-2017, Nəşr nömrəsi: 122), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-06-2017, Nəşr nömrəsi: 06, Maddə nömrəsi: 1018)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **08.06.2017** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **170.140.020** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | **12201704140595** |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **06.06.2017** |

**“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 11-ci bəndini rəhbər tutaraq, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998,   9, maddə 563; 2004,   7, maddə 505; 2007,   5, maddə 442; 2009,   10, maddə 768; 2010,   5, maddə 374; 2011,   4, maddə 262,   12, maddə 1091; 2015,   11, maddə 1251; 2016,   12, maddə 1991) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

“qaz eksperti - qaz təchizatı sahəsində sınaq işlərinin aparılması üzrə “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş fiziki və hüquqi şəxslər;”.

2. 3-cü maddəyə aşağıdakı məzmunda 9-cu hissə əlavə edilsin:

“9. Sənaye qurğularının və proseslərinin, istehlakçı qurğularının, enerji daşıyıcılarının və məhsullarının sertifikatlaşdırılması “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən aparılır. ”.

3. 4-cü maddənin ikinci hissəsinin birinci cümləsindən “və sertifikat verildikdən” sözləri, ikinci cümləsindən “və sertifikatın verilməsinə” sözləri çıxarılsın.

4. 8-ci maddənin birinci hissəsindən “sertifikatlaşdırılması,” sözü, dördüncü hissəsindən “və sertifikatlarının” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 aprel 2017-ci il
595-VQD